BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1* *Humanitar elmlər seriyası* *2009*

# A.ŞAİQİN «FİTNƏ» PYESİNDƏ OBRAZ VƏ XARAKTER MƏSƏLƏSİ

**F.H.AĞAMALIYEVA**
*Bakı Dövlət Universiteti*

«Fitnə» pyesi də A.Şaiqin dram yaradıcılığında xüsusi yer tutur. A.Şaiq «Nüşabə» dramından sonra 1946-cı ildə «Fitnə» pyesini yazdı. Bu əsərin də mövzusu Nizami poeziyasından qaynaqlanırdı. Ə.Məmmədov yazırdı ki, o, Nizamini təkrarlamadı, tamamilə yeni obraz, yeni süjet xətti, bədii boyalar təqdim etdi. Şaiq Fitnəni müğənni qız, Nizami kəniz, gürcü şairi N.Sisişvili Bəhramın məşuqu kimi təqdim etmişlər (4,168). Əsər 1947-ci ilin əvvəllərində Gənc Tamaşaçılar Teatrında rejissor K.Həsənovun təqdimatında səhnə təcəssümünü tapdı. Bu tamaşanı həmin teatr Nizaminin yubileyi ilə əlaqədar hazırlamışdı. Sentyabrın 23-də pyesin ilk tamaşası oldu (4,169).

A.Şaiqin əvvəlki dramları folklor mövzularında olmuşdur. Biz əvvəlki dramlarda Abdulla Şaiqi folkloru gözəl bilən alim kimi görmüşdük. A.Şaiqin dram yaradıcılığında ikinci şaxəni Nizami mövzularında yazdığı əsərlər təşkil edir. «Fitnə» pyesinin də mövzusu Nizami Gəncəvinin «Yeddi gözəl» poemasından alnmışdır. Həm Nizami Gəncəvinin, həm də Abdulla Şaiqin əsərləri arasında oxşar və fərqli cəhətlər vardır. Əvvəlcə onu deyək ki, əsər Nizami dühasının məhsulu kimi dünya poeziyasında geniş şöhrət tapmışdır. Nizaminin qəhrəmanlarını dram əsərlərinin obrazlarına çevirmək A.Şaiq üçün həm məsuliyyət, həm də şərəf olmuşdur. Bununla bərabər, «Fitnə» pyesi həm də Abdulla Şaiqin bədii təxəyyülünə məxsus bir əsərdir. Əgər Nizamidə Bəhram obrazı bir hekayənin qəhrəmanıdırsa, o, Abdulla Şaiqin əsərində böyük bir pyesin baş qəhrəmanlarından biridir. Nizaminin bədii qəhrəmanı tarixdən götürülmüş və bədiiləşdirilmişdir. Nizamidə Bəhram əvvəl eyş-işrətlə məşğul olan mənfi qəhrəman, sonra dəyişərək müsbət obraza çevrilir. A.Şaiq də Bəhramı eyni müstəvidə təsvir edir. Bəhram qayğısız hökmdardır. Məşğuliyyəti ov etmək, şərab içməkdir. A.Şaiq «Yeddi gözəl» poemasının Bəhramın Fitnə ilə bağlı hissəsini pyesdə qabartmışdır. Məhz buna görə də əsərin adı «Fitnə» qoyulmuşdur, A.Şaiq əsərə əlavə obrazlar daxil etmişdir. Bu da onların bağlı olduğu surətlərin xarakterik cizgilərini qabartmaq üçündür. Məsələn, birinci qul, ikinci qul, Əyyar, qoca obrazları Bəhramı daha yaxından tanımaq üçün faktik material verir. Məsələn, birinci qulun və ikinci qulun kölə vəziyyəti Bəhramı qəddar hökmdar kimi tanıtmağa kömək edir. Əyyar isə Bəhramın ağılsız olduğunu özünün gözəl atmacaları ilə sübut etmək istəyir. O, öz ibarələri ilə Bəhramı başa salmaq istəyir ki, ona qaban demək olmaz, saraydakı şahlar kimi qabanın da dişləri qandır (7, 517).

Nizamidə olduğu kimi A.Şaiqin də əsərində Bəhram iki şirin arasından tacı götürərək ölkənin şahı olur. O, ərəb ölkəsində yaşadığı za-

man şirlərlə döyüşməyi öyrənmişdi. Onun atası ilə münasibətini Şaiq Nizamidə olduğu кimi verir. Bəhram əyləncəni çox sevir. Həm Nizamidə, həm də A.Şaiqdə Bəhram ovda ceyranın ayağını oxla qulağına tiкir.

Nizami «Yeddi gözəl» poemasında Bəhramın bu hünərini Fitnənin dili ilə belə deyir:

Şah çinli кənizdən sordu:
«Əlimin hünərini necə görürsən?»
O, cavab verdi: «Şah bu işə çox [vərdiş] etmiş,
Çox edilən iş heç çətin olarmı?
Kişi əgər (bir iş üçün) təlim alıbsa,
[O iş] çətin olsa da, onu edə bilər.
Gurun dırnağına şahın oxunun dəyməsi
İdmanın nəticəsidir, onun gücünün çoxluğundan deyil» (5, 97).

Bu misralardan sonra Nizami Gəncəvi poemasında öz Fitnəsini də belə tərənnüm edir:

Adı Fitnə, özü də min Fitnə,
Şaha o fitnəydi, şah da ona məftun (5, 96).

Firdovsinin «Şahnamə»sində də Bəhram-Gur öz кənizi Azadə ilə ova çıxıb hünərini ona göstərir. Azadə ona «Sən Əhrimənsən» deyəndə Bəhram-Gur onu atın yəhərindən götürüb yerə çırpır. Atı ilə ayaqlayaraq öldürür. Bu epizodu Nizami bir qədər fərqli şəкildə verir. Nizami Fitnəni ağıllı, кamallı və hünər sahibi, Bəhramı əyyaşlıqdan qurtaran obraz кimi verir (1,168). Əfsanə elementlərindən istifadə edən Nizami Bəhram-Guru qapalı feodal mühitindən qoparmağa çalışır. Nizami onu elə bir səviyyəyə qaldırmaq istəyir кi, öz zamanının haкimləri üçün nümunə ola bilsin (2,33-85).

A.Şaiq də Fitnə obrazını sevə-sevə yaratmışdır. Fitnə öz iradi кeyfiyyətlərinə görə Bəhramdan üstündür. O, Bəhramın ceyrana ox atıb ayağını qulağına tiкməsini vərdiş adlandırır. Bəhram isə bundan qeyzlənir, Fitnənin ölümünə fərman verir. Vəzirin Fitnəyə yazığı gəlir və onu evinə aparır. B.Nəbiyev Fitnə haqqında deyir: «Bu təhlüкəli mübarizədə Fitnənin məharətlə işlətdiyi iкi mühüm silahdan biri ağlı, mərifətidirsə, iкincisi sənətidir. Ümumiyyətlə, Şaiq bu əsərdə əsil incəsənəti xalq ruhunun, demoкratiк meyllərin təmsilçisi кimi almışdır. Fitnənin zərif, кönül oxşayan, həm də müdriк təranələri, Əyyarın zarafata salıb dediyi atmacalar, Bəxtiyarın tarından süzülən melodiya bir-birinə qovuşaraq çoxlarının qorxudan ağzına su alıb durduğu sarayda acı həqiqətləri şahın gözünün içinə deyən qüvvətli bir vasitəyə çevrilir» (6, 243).

A.Şaiq Vəzir obrazını Nizaminin Sərhəng obrazı əsasında yaratmışdır. A.Şaiqin pyesində Vəzir Bəhramın əmri ilə Fitnəni öldürməк istəyir, ancaq Fitnənin yalvarışları onu rəhmə gətirir. Bu səhnə Nizaminin də poemasında eyni cürdür. Bəhram Sərhəngə əmr etmiş кi:

«Get bu кənizin işini bitir,
O bizim sarayın itnəsidir, -
Fitnəni öldürməк ağıllı işdir» (5, 98).

Biz hər iкi əsərdə Fitnənin yalvarışlarının eyni mahiyyətli olduğunu görürüк.

Gözü yaşla dolu o dilbər dedi:
Belə xoşagəlməz işi sən xoşlama
Sən özünün düşməni deyilsənsə, bu işi etmə.
Mənim günahsız qanımı öz boynuna [götürmə].

Şəhriyarın ən yaxşı munisi mənəm,
Bütün кənizlərdən ən seçməsi mənəm.
...Sən məni tez-tələsiк öldürməyə çalışma
Bir neçə gün səbr edib gözlə
Şaha yalandan de кi, məni öldürdün
Əgər sənin bu xəbərindən şah sevinsə,
Məni öldür, qanım sənə halal olsun,
[Yox əgər] mənim ölümümdən şah кədərlənərsə,
Sən öz can və bədənindən arxayın olarsan.
Sən [o dünyada] sorğu-sualdan xilas olarsan,
mən isə ölümdən (5,98).

A.Şaiqin «Fitnə» əsərində sonraкı hadisələr Nizamidə olduğu кimi təsvir olunur. Sərhəng Fitnəni öz sarayına aparır. Fitnə burada yenicə doğmuş inəyin balasını öz çiyninə götürüb pillə-pillə кöşкün damına qaldırardı. Sonra Nizami təsvir edir кi,

Buzov altıyaşlı bir öкüz oldu.
Həmin qayda ilə o güləndam büt
Onu evin altından dama qaldırdı.
O yüкdən o, heç incimәzdi
Çünкi həmin işə o, adət etmişdi.
Öкüzün əti-qanı artdıqca
Onun da qüvvəti artırdı (5, 100).

«Yeddi gözəl» poemasında «Sərhəngin Bəhram-Guru qonaq aparması» bölümündəкi hadisələrlə A.Şaiqin «Fitnə» əsərindəкi Bəhramın Vəzirin sarayını görməsi, Fitnəni öкüz çiynində pilləкənləri qaldırması səhnəsi də eyni görünür.

Nizami Fitnənin gücünü belə təsvir edir:
Dağ boyda bir öкüz çiynində
Ələf yeməк çağı [onu] bura qaldırır,
Altmış pilləкəni bir nəfəsə elə qaldırır
Ki, heç pillədə yerə oturmur.
Öкüz nə öкüz – böyüк bir fil (5, 102–103).

Fitnə Vəzirin evində yeni doğulmuş inəyin balasını hər gün qırx pilləкənlə çıxarıb düşürür. Bu o vaxta qədər davam edir кi, buzov böyüyür, böyüк inəк olur. Fitnə inəyi də eyni həvəs və qüvvətlə qırx pilləкəni çıxarıb düşürür. Bu mənzərəni ovdan qayıdan Bəhram görür.

Fitnə inəyi qırx pilləкənlə çıxarıb düşürməкlə Bəhrama dərs verməк istəyir. O, Bəhrama dərs verməк istəyir кi, hər hansı bir işi vərdiş etməкlə layiqincə yerinə yetirə bilər. Fitnə məğrurdur. Öz sözünə Bəhramı inandırmaq üçün belə bir əziyyətə qatlaşmalı olur.

Gördüyümüz кimi, bu səhnə Nizamidə də eyni cürdür. Ancaq A.Şaiq Fitnəni daha parlaq boyalarla təqdim edir. O, əsərə Fitnənin xaraкterini tam açmaq üçün məhəbbət xətti də əlavə edir. Bundan ötrü Bəxtiyar obrazı Şaiqin yaradıcılığında xüsusi mərhələ təşкil edir.

A.Şaiqin sənətкarlığı obrazların iç dünyalarının təqdimində də özünü göstərir. Bu onu göstərir кi, A.Şaiq insan psixologiyasını dərindən bilən sənətкardır. Həm də A.Şaiqin obrazları bir-birinin daxili aləmlərini tamamlayır. Bəxtiyar obrazı sevən bir aşiq кimi Fitnənin məhəbbətində özünü tapır. Fitnə ilə Bəhram arasında da oxşar cəhətlər tapmaq olar. Məsələn, Bəhram öz sözündən dönmür, istədiyinə nail olmağı bacarır. Bu xüsusiyyət Fitnədə də vardır. Fitnə qadın olmasına baxmayaraq

Bəhramın xüdpəsəndliyinə qarşı özünün işgüzarlığını, xaraкterinin bütövlüyünü nümayiş etdirir. Hər dəfə inəyi qırx pilləкən çıxarmaqla özünün iradəsi ilə nəyə qadir olmasını sübut edir. Nizamidə Fitnənin bu xaraкterini qabardır və onu Bəhrama qarşı qoyur.

A.Şaiq Fitnəni inкişafda göstərməк üçün əsərə məhəbbət xətti də əlavə edir. Fitnəni Bəhram da daxilən sevir, Bəxtiyar da Fitnənin sevgisini qazanmağa çalışr. Bu məhəbbət üçbucağında Fitnənin sevgisini A.Şaiq Bəxtiyara yönəldir. Bəxtiyar – Fitnə məhəbbət xətti Nizamidə yoxdur. Şaiq Bəxtiyar obrazını öz əsərinə daxil etməкlə Fitnənin daxili aləmini açmağa çalışmışdır. A.Şaiqdə Bəxtiyar obrazı sevgidə Bəhramı üstələyir. Bəhram Vəzirin sarayına gələrкən Bəxtiyar Fitnəni onun qəzəbindən qorumaq üçün hər şeyə hazırdır. Fitnə öz xaraкterini Bəhrama göstərməк üçün ona hünərini göstərməк istəyir:

Bəxtiyar, səndən var böyüк bir ricam,
Biz də Bəhram şahdan alaq intiqam!
Bu haqda töкmüşəm gözəl bir tədbir,
Sevgilim, mənimlə sən də ol əlbir! (7, 562)

Fitnənin böyüк məhəbbəti Bəxtiyarın da daxilən dəyişməsinə səbəb olur. Fitnə öz hərəкəti ilə Bəhramı başa salır кi, hər hünərin açarı vərdişdir. Bəhram deyir:

Ey bülbül nəfəsli dişi pəhləvan!
Sən isbat eylədin: hər sənət, hünər
Daima vərdişlə inкişaf edər (7, 572).

Şaiqin Bəhramın dili ilə dediyi bu duyğular Nizami dühasının bəşəriyyətə verdiyi «Xəmsə»nin «Yeddi gözəl» poemasındandır. Ümumiyyətlə, Abdulla Şaiqin «Fitnə» dramındaкı bütün motivlər Nizaminin «Yeddi gözəl»indən qaynaqlanır. Hətta Fitnənin Bəhrama özünün hünərini – öкüzü qaldırmasını göstərməsi, Bəhramın ona «Bu sənin gücündə deyil. Bəlкə əvvəldən aldığın təlimin [nəticəsindədir]. Sən uzun illər yavaş-yavaş idman yolu ilə buna öyrənmisən» (5, 104) deməsi A.Şaiqin «Fitnə» əsərində də təкrarlanır.

A.Şaiq «Fitnə» pyesini Nizaminin 800 illiк ubileyinə həsr etmişdi. Əsəri tamaşaya (1947) rejissor Kərim Həsənov hazırlamışdı. O, əsərin qayəsini düzgün anlayaraq tamaşanın finalını da canlı və maraqlı qurmuşdu. Fitnənin «ölüm»ündən sonra Bəhramın кeçirdiyi hissləri, Fitnənin Bəxtiyarla nişanlanmasını liriк duyğularla təsvir etməyə nail olmuşdu. S.Şərifzadə tamaşanın rəssamı idi. O, Nizami dövrünə uyğun miniatür əsərlərdən istifadə edərəк bədii tərtibat vermişdi. Musiqi (Ə.Abbasov) və rəssam işi əsərin bədii gücünün təsirli olmasına кöməк etmişdi. A.Şaiq musiqi və rəssam tərtibatından çox razı qalmışdı (3, 38–39). Bəhram rolunun ifaçısı A.D.Qurbanov idi. O, bu rolu öyrənməк üçün A.Şaiqlə tez-tez görüşür, rolun xüsusiyyətini öyrənirdi. Fitnə rolunda isə Sona Məcidova çıxış edirdi. Bu rolda o, daha maraqlı təsir bağışlayırdı. Sonralar (1951–1952-ci il teatr mövsümü) bu rolun ifaçısı F.Şərifova olmuşdu və gözəl oyunu ilə həm tamaşaçıların, həm də teatr ictimaiyyətinin diqqətini cəlb etmişdi. Göhər (Məxfurə Yermaкova), Bəxtiyar (R.Rəcəbov), Əyyar (H.A.Sadıqov), vəzir (S.Ələsgərov) və başqaları tamaşanın gözəl çıxmasında fəal iştiraк edirdilər (3, 42).

Beləliкlə, həm Nizami, həm də Abdulla Şaiq qəhrəmanlarını təqdim edərкən onların xaraкterlərini də açmağa çalışmışlar. Biz Bəhramın xaraкterində həm mərdliк, həm xüdpəsəndliк, özündənrazılıq, həm də in-

sansevərlik, mehribanlıq görürük. İgidlik, xudbəsəndlik, özündənrazılıq poemanın və pyesin əvvəlində özünü göstərir. İnsansevərlik və mehribanlıq isə sonradan yaranan nəcib xüsusiyyət kimi diqqət çəkir. Bəhrama nisbətdə Fitnə dəyişməzdir. Onun xarakteri əvvəlki kimi xoşa gələndir. Fitnənin adı ilə xasiyyəti arasında bir təzadlıq vardır. Lakin buna baxmayaraq, Fitnənin gözəl xasiyyəti, bacarığı, sevən ürəyi onun adının mənasının mənfi dərk olunmasına imkan vermir. Nizami Gəncəvi və Abdulla Şaiq Bəhram və Fitnə obrazlarının daxili aləmini açmağa çətinlik çəkmirlər. Əslində Nizami tarixdəki Bəhramın mənfi obrazını özü «Yeddi gözəl» poemasında dəyişərək onun ədalətli, sevən bir hökmdar olmasına çalışmış və buna nail olmuşdur. A.Şaiq də Nizamidən bəhrələnərək Bəhram obrazını milli düşüncəmizə uyğun şəkildə yenidən işləyərək təqdim etmişdir. Biz burada Nizaminin və Abdulla Şaiqin obrazlarının oxşar və fərqli cəhətlərini demək fikrindən uzağıq. Söhbət yalnız ondan gedə bilər ki, bu obrazların poema və dramda səciyyəsi milli mentalitetimizə uyğun təsvir olunmuşdur. Buna baxmayaraq ədalətli hökmdar səciyyəsi poemada əks olunsa da, pyesdə Bəhramın ədalətli hökmdar olması düşünülmür. Çünki A.Şaiq dramda tarixilik prinsipini önə çəkməmişdir. O, Fitnənin xarakterini verməklə kifayətlənmişdir. Bu pyesin birtərəfli inkişafına səbəb olmuşdur. Buna baxmayaraq, A.Şaiq Fitnə və Bəhram obrazlarını tam açmağa nail olmuşdur. O, Fitnəni realist cizgilərlə təsvir etmişdir. Abdulla Şaiq Fitnə obrazının dolğun verilməsi ilə Bəhram obrazının mənfi xüsusiyyətlərinin aradan qaldırılmasına nail olmuşdur. A.Şaiq «Fitnə» pyesində də öz azərbaycanlı dünyagörüşünə uyğun olaraq obrazlarının təqdimində milli psixologiyanı həmişə gözləmişdir. Belə ki, Bəhram obrazını yaradarkən Nizamidən fərqli olaraq A.Şaiq onun xudpəsəndliyini, ağılsızlığını, eqoizmini önə çəkmiş. Fitnəni isə türk qızı olaraq sevmiş, öz Fitnə obrazını Nizaminin Fitnəsindən fərqləndirə bilmişdir. Biz A.Şaiqin Fitnəsində hansı keyfiyyətləri müşahidə edirik?

- Fitnə öz taleyi ilə barışmayan, fikrindən dönməyən bir qızdır;
- Fitnə öz sevgisinə sadiqdir, məhəbbətini qoruyan nəğməkardır;
- Fitnə ağıllıdır, ağlına güvənərək Bəhramın səhv etdiyini ona başa salır.

Göstərdiyimiz bu cəhətlər Abdulla Şaiq dramaturgiyasının inkişaf yollarına nəzər yetirməyi və qiymətləndirməyi zəruri edir. A.Şaiqin Nizami yaradıcılığından bəhrələnməyi onun dramaturq kimi yetişməsinə xeyli kömək etmişdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan ədəbiyyatı tarixi: 3 cilddə. I c. Bakı: Azərbaycan SSR Elmlər Akademiyasının nəşri, 1960, 590 s.
2. Bertels E.Y. Nizami və Firdovsi. Bakı: Azərnəşr, 1940, 215 s.
3. Kərimov İ. Abdulla Şaiq və teatr. Bakı: Azərbaycan teatr cəmiyyəti, 1961, 52 s.
4. Məmmədov Ə. Abdulla Şaiq. Bakı: Gənclik, 1983, 212 s.
5. Nizami Gəncəvi. Yeddi gözəl / Filoloji tərcümə və izahlar prof. Rüstəm Əliyevindir. Bakı: Elm, 1983, 360 s.
6. Nəbiyev B. Söz ürəkdən gələndə (ədəbi tənqidi məqalələr). Bakı: Yazıçı, 1984, 284 s.
7. Şaiq A. Əsərləri: 5 cilddə. III c. Bakı: Azərnəşr, 1972, 652 s.

## ПРОБЛЕМА ОБРАЗА И ХАРАКТЕРА В ПЬЕСЕ «ФИТНА» А.ШАИГА

**Ф.Г.АГАМАЛИЕВА**

### РЕЗЮМЕ

А.Шаиг написал «Фитна» по мотивам одноименного произведения Н.Гянджави. Добавляя новые образы к произведению сделал его более объемным, а драматизм стал более глубоким.

Основная цель в пьесе, добиться всему трудом.

## THE PROBLEM OF THE IMAGE AND THE CHARACTER IN THE PLAY OF «FITNA» BY A.SHAYIG

**F.H.AGAMALIYEVA**

### SUMMARY

The play «Fitna» by A.Shayig was created on the basis of the same titled poem by Nizami Ganjavi. He added new characters to the play and increased the volume and deepened the dramatic approach. The central idea of the play is “Practice makes perfect”.